

Firəngiz SABİRQIZI

***

İndi xatirələr qapı dalından
boylanır, üzü yox, evinə dola.
Mənim əllərimi tutan əlinin
ətiri ovcundan cibinə dola.

Çırpıb xatirəmi əyninə geyin
mən alan o qara xətli köynəyi.
Sənin arvadının barmaqlarında
yuyulur qəlbimin sevgi göynəyi.

Daha qurumağa asılım gərək
mıxlanan ən uzun paltar ipindən.
Mənim  əllərimi tapacaq bir gün
xanımın köhnələn köynək cibindən.

***

Bütün gecələrin yuxusı qaçıb,
Bütün səhərlərin yuxusu gəlir.
Hardasa nəm çəkir bir qara köynək,
Burnuma ayrılıq qoxusu gəlir.

Yığıb ulduzları qır qazanından,
Sönük xatirəmə ilmə çəkirəm.
Düzüb damcı-damcı göz yaşlarımı,
Sənin köynəyinə düymə tikirəm.

Əzilən ağ-qara, ütüsüz xətlər
Sənin əllərində mənim telimdir.
Sizin asılqanda asılan köynək
Yarı qız qarıyıb, yarı gəlindi...

Bütün gecələrin yuxusu qaçıb,
Bütün səhərlərin yuxusu gəlir.
Hardasa nəm çəkir bir qara köynək,
Burnuma ayrılıq qoxusu gəlir.

**ÇAY DAŞLARI**

Sel ağardan çay daşları,
Sizdən də ev tikdilər.
Sizi böyüdüb-böyüdüb,
Başdaşıtək əkdilər.

İki qolun arasında
Qucaq boyda olursuz.
Yetim qalan adamlara
Oyuncaq da olursuz.

Ən sərin kölgə sizsiniz,
Ən qaynar günəş işığı.
Boylanır qəbir daşından
Ən sərt daşların baxışı.

Mamırları ələm-ələm,
Balıqların piri daşlar.
Sükutu da sözlə dolu,
Adamlardan diri daşlar.

Telim kimi ağ-qarasız,
Yaraşmır boyaq da sizə.
Sığal çəkir incə-incə,
Dalğalı daraq da sizə.

Doyun sudan, quru daşlar,
Mənimçün də böyüyün.
Yerimizi dəyişməyə
Torpaq altda sürünün.

Sel ağardan çay daşları,
Sizdən də ev tikdilər.
Sizi böyüdüb-böyüdüb,
Başdaşıtək əkdilər.